**Seyfəddin Sabir oğlu Səməndərov**
**Aygün Xeyrulla qızı Fətəliyeva**
**Zənfirə Qəzənfər qızı Quliyeva**

**UOT: 330.83; JEL: A19.**

# Post keçid dövrünün iqtisadi xüsusiyyətləri və dəyərləndirmələr

***Xülasə***

*Məqalədə Azərbaycanın iqtisadi ədəbiyyatlarında post keçid dövrünün iqtisadi xüsusiyyətləri ilə bağlı səslənən elmi fikirlər araşdırılmışdır. Tədqiqatlar nəticəsində müasir iqtisadi ədəbiyyatlarda keçid dövrü ilə bağlı səslənən fikirlədəki əsas istiqamətlər müəyyənləşdirilmiş, eyni zamanda keçid və post keçid dövrləri arasında müqayisələr aparılaraq yeni iqtisadiyyat anlayışının məzmununa aydınlıq gətirilmiş, bazar iqtisadiyyatı münasibətləri sisteminin bərqərar olduğu müxtəlif ölkələrin proseslər qovşağnda (müasir postkeçid dövründə) iqtisadi siyasətinin müqayisəli təhlili də aparılmışdır.*

***Açar sözlər:*** *keçid dövrü, post keçid dövrü, sosialyönümlü, bazar iqtisadiyyatı, iqtisadi model*

## Giriş

Bəşər mədəniyyətinin, o cmülədən onun iqtisadi komponent və elementlərinin durmadan, intensiv inkişaf etməsi bir neçə problemin yaranmasına səbəb olmuşdur. Bunlar aşağıdakılardır: baş verən dəyişikliklərin mahiyyəti haqqında adekvat elmi və nəzəri təsəvvürlərin formalaşması; onun strateji inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və s. Bütün bunlar isə öz növbəsində XX-XXI əsrlərdə texnoloji, iqtisadi, siyasi və institusional dəyişikliklərin xüsusiyyətlərinin araşdırılması zamanı elmi araşdırmalar müstəvisində müxtəlif konsepsiyalarin formalaşmasına səbəb olmuşdur. Həmin konspesiyalar cəmiyyətlərdə baş verən kəmiyyət və keyfiyyət dəyişikliklərinin məzmun və mahiyyətinin bilavasitə xarakterizə edilməsi ilə bağlıdır. Belə biz zəmində XX əsrin ortalarından başlayaraq və sonrakı illərdə də inkişaf etdirilmiş “postindustrial cəmiyyət”, “informasiya cəmiyyəti”, yaxud “innovasiya iqtisadiyyatı”, “şəbəkə iqtisadiyyatı”, “kreativ iqtisadiyyatı” nəzəriyyələri xüsusi olaraq qeyd edilə bilər. Eyni zamanada qeyd etmək lazımdır ki, nəzəri müstəvidə analitiklərin böyük bir qismi iddia edirlər ki, XX əsrin ikinci yarısından inkişaf etmiş dövlətlər postindustrial inkişaf mərhələsinə daxil oldular. Postindustrial cəmiyyəti özünün bir sıra xüsusiyyətləri ilə və daha çox biliklərin rolunun artması ilə diqqəti cəlb edir. Bu keçidin başlıca nəticələri biliklərin kəmiyyət və keyfiyyət göstəricilərinin xeyli yüksəlməsi, informasiya, virtual sektorunun, xidmətlər sektorunun böyüməsi, idarəetmə strukturlarında dəyişikliklərin edilməsi, resursa qənaətedci texnologiyaların işlənilib hazırlanmasında özünü büruzə verir. Müasir iqtisadiyyatda yüksək texnologiyaların və informasiya istehsalı sahələrinin real inkişaf prosesləri gedir.

Ümumiyyətlə, qeyd etmək yerinə düşərdi ki, insan varlığının sosial-iqtisadi məziyyətlərində keyfiyyət dəyişiklikləri nə qədər dərinləşirsə, yeni yaranmış problemlərin ictimai-iqtisadi idrak müstəvisində həlli ilə bağlı dəyərləndirmələr sistemində tarixi-iqtisadi məhdudiyyətlər bir o qədər kəskinləşməkdədir. Bu səbəbdən də müasir dövrdə reallıqlara adekvat təhlil üsullarının axtarılıb tapılması zərurəti daha kəskin hiss olunur. Müvafiq olaraq mövcud iqtisadi reallıqlardakı dəyişiklikləri, yeni iqtisadi reallıqların özünü büruzə verməsi çox mərhələli prosesin reallaşdırılması kimi xarakterizə edilə bilər:



*©Seyfəddin Sabir oğlu Səməndərov AMEA İqtisadiyyat İnstitutu, i.e.d., Aygün Xeyrulla qızı Fətəliyeva AMEA İqtisadiyyat İnstitutu, i.ü.f.d., Zənfirə Qəzənfər qızı Quliyeva Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, İctimai elmlər kafedrası, t.ü.f.d., dos.*

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

*Birincisi, köhnə iqtisadi sistemin süqutu prosesinin başlanması; intensivləşməsi; sona çatması;*

*İkincisi, yeni iqtisadi sistemin və yaxud yeni iqtisadiyyatın təşəkkülü prosesi. Bu iki mərhələ arasındakı zaman hüdudlarında baş verənlər isə keçid dövrü kimi xarakterizə edilir;*

*Üçüncü mərhələ keçid dövrünün başa çatması, yeni iqtisadi sistemin, yeni iqtisadiyyatın təşəkkülü mərhələsidir.*

Belə bir kontekstdə bəzi nəzəri incəliklərə bir qədər daha ətraflı diqqət yetirilməsi məqsədəuyğun olardı. Burada hər şeydən öncə cəmiyyətlərin və iqtisadi münasibətlər sistemiunin inkişafında keçid dövrü mərhələsi ilə bağlı müəyyən məsələlərin işıqlandırılması məqsədəuyğun olardı.

**Keçid dövrü və post keçid mərhələsi nəzəri dəyərləndirmələr kontekstində**

Keçid dövrü cəmiyyətin keyfiyyət məzmununu transformasiyası kimi, onun mahiyyətində dəyişikliklərin baş verməsinə gətirib çıxarır. Bütün bu baş verənlərin ümumi cəhəti kimi sistem böhranı göstərilə bilər: köhnə idarəetmə sisteminin; iqtisadi strukturların; mülkiyyət münasibətlərinin, ideologiyanın böhranı və s. Ümumiyyətlə, keçid dövrünü formalaşma, təşəkkül tapma dövrü kimi xarakterizə etmək olar. Burada eyni zamanda köhnə və yeni təsərrüfat münasibətləri sisteminin elementləri paralel olaraq mövcud olur. Keçid dövrü əlamətləri kimi aşağıdakıları göstərmək olar: əhalinin sosial fəallığının artması; narazılıq və həyəcanların artması; daxili və xarici siyasətin böhranı; istehsalın və əhalinin həyat səviyyəsinin yüksəlməsi; yeni formalamış siniflərin və sosial qrupların pərakəndəliyi (fraqmentarlığı); mülkiyyət diferensiallığının artması və s. nəticəsində yaranan sosial məyusluq. Deyilənlərlə yanaşı keçid dövrünün əlamətləri kimi qnunvericilik bazasının zəifliyini də göstərmək olar. Bütün bunlar isə iqtisadiyyatın əsaslarının fundamenatl yenilənməsi prosesi, onun qanunverilik bazasını sürətlə ötüb keçməsi ilə müşaiyət olunur [16]. Keçid dövrünün başlanğıcı bir sıra hadisələrlə diqqəti cəlb edir: siyasi çevrilişlər, üsyanlar, müharibələrin elan edilməsi, dövlət rəhbərlərinininin dəyişilməsi, qanunvericilik aktlarının qəbulu və ləğv edilməsi keçid dövrünün hüdudlarını göstərir [20].

İstənilən keçid dövrü bütünlükdə cəmiyyət üçün ağrılı prosesdir, burada sosial gərginliyin artması və etnik münaqişlərlərlə bağlı ciddi təhlükələr də meydana gəlir. Keçid dövrünün daha bir xarakterik xüsusiyyətlərindən biri də odur ki, bu dövrdə görkəmli şəxsiyyətlər tarix səhnəsinə çıxır. Ümumiyyətlə, postsovet məkanı iqtisadi ədəbiyyətlarında səslənən iqtisadi fikirlərdə hal-hazırda ölkələrindəki vəziyyətin xarakterizə edilməsi ilə bağlı üç istiqamət xüsusi ilə diqqəti cəlb edir: Keçid dövrü başa çatmış, artıq postkeçid dövrü başlamışdır; keçid dövrü bitsədə transformasiya prosesi hələ davam edir; nəhayət mövcud fikirlərdə üçüncü istiqamət – keçid dövrü hələ də bitməmişdir, keçid dövrünün bitməsi uzun müddətli iqtisadi sabitlik, davamlı iqtisadi artım və inkişaf proseslərinin başlanması ilə əlaqələndirilir. Belə bir zəmində qeyd etmək lazımdır ki, M.V.Maksimenko [17] hesab edir ki, müasir dövrdə rus cəmiyyəti qeyri sabit (keçid, böhran) vəziyyətdədir. Bununla əlaqədar rus cəmiyyətində çox saylı problemlər vardır, həmin problemlərin həlli ilə bağlı çox saylı elmi əsərlər, monoqrafiyalar dərc edilmişdir. Həmin araşdırmların sistemli araşdırma hesab edilməsinə baxmayaraq dar çərçivədə, pərakəndə şəkildə irəli sürülmüş təklif və tövsiyyələrdən ibarətdir [17]. Lakin iqtisadi ədəbiyyatlarda səslənən bir ümumi fikrin qeyd edilməsi yerinə düşərdi ki, XX əsrin 90-cı illərinin əvvəlində bütün post sovet məkanında planlı dövlət sosialist iqtisadiyyatından "bazar iqtisadiyyatına keçid" prosesləri vüstətlənməyə başladı və bu proseslər 2000-ci illərin əvvəllərinə qədər davam etdi, müstəqillik əldə etmiş respublikaların rəhbərləri öz ölkələrində keçid dövrünün başa çatması ilə bğlı rəsmi bəyanatlar verməyə başladılar. Belə bəyanatların verilməsinə əsas kimi aşağıdakı amilləri qeyd etmək olar:

⇨ Torpaqların kəndliyə verilməsi, becərilən bütün torpaqların xüsusi sektora verilməsi;



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

- Ölkə iqtisadiyyatının 80 faizinin özəl sektora aid olması;
- Makroiqtisadi sabitliyin təmin olunması;
- Bank sektorunun dayanıqlığının təmin olunması;
- Ölkə iqtisadiyyatında sabit artım tempinin müşahidə edilməsi;
- Vergilərin ödəniş sisteminin şəffaflaşdırılması;
- Qeydiyyatda "vahid pəncərə" sisteminin tətbiq edilməsi;
- İqtisadiyyatda bazar mexanizmləri və prinsiplərinin tətbiqi;
- İqtisadiyyatı tənzimləyən qanunların bazar prinsiplərinə əsaslanması;
- İqtisadi idarəetmənin müasirləşdirilməsi, struktur islahatlarının aparılması, bəzi qurumların birləşdirilərək idarəçiliyin sadələşdirilməsi və mərkəzləşdirilməsi;
- Ölkədə iqtisadi rəqabət mühitinin formalaşdırılması və s.

Göründüyü kimi, bütün bunlar iqtisadiyyatda sosialist planlı iqtisadiyyatından bazar iqtisadiyyatına keçid dövrünün bitdiyini göstərən əsas amillərdir. Keçid dövrü o zaman bitir ki, yeni iqtisadi münasibətlər sistemi köhnə iqtisadi münasibətlər sistemini tam olaraq əvəz edir. Yeni iqtisadi münasibətlər sisteminin formalaşması və təşəkkülü prosesi aşağıdakı ardıcıllıqla davam edir: genezis-formalaşma-təsdiq. Keçid dövrü burada formalaşma mərhələsidir [15]. Keçid dövrü ilə yeni keyfiyyətin, yeni keyfiyyətdə sistem tarazlığına nail olunması arasındakı hüdudları tam olaraq təsbit etmək çətindir [15]. Lakin bir faktı nəzərdən qaçırmaq olmaz ki, keçid dövrü yeni iqtisadiyyatın, yeni iqtisadi sistemin təşəkkül tapması ilə nəticələnir. Burada yeni, formalaşmaqda olan və formalaşmış iqtisadi sistemin xarakterizə edilməsi üçün hər şeydən öncə bütünlükdə "iqtisadiyyat" anlayışının məzmunu ilə bağlı müəyyən dəyərləndirmələrin aparılması məqsədəuyğun olardı. Həmin anlayışın məzmunu və mahiyyəti ilə bağlı müxtəlif fikirlər diqqəti cəlb edir:



- İqtisadiyyat- hər hansı bir ölkənin milli təsərrüfat sistemidir, tərkibinə ayrı-ayrı sahələr daxildir (sənye iqtisadiyyatı, kənd təsərrüfatı və s.); rayonların, regionların, ölkənin, ölkə qruplarının, bütün dünyanın təsərrüfatı (regional iqtisadiyyat, milli iqtisadiyyat, dünya iqtisadiyyatı) kimi də xarakterizə edilir;
- Təsərrüfat fəaliyyəti prosesində həmin ölkənin məhsuldar qüvvələrinin inkişaf səviyyəsinə uyğun, müəyyən iqtisadi sistemin yaranmasına gətirib çıxaran, insanlar arasında tarixən formalamış iqtisadi münasibətlərin məcmusu;
- İnsanların fəaliyyətini, onun qanun və qanunauyğunluqlarını (iqtisadi nəzəriyyə, siyasi iqtisad), istehsalın bəzi şərait və elementlərini, ayrı-ayrı təsərrüfat fəaliyyəti sahələrini araşdıran elmi fənn kimi də təqdim olunur.

Müvafiq olaraq daha bir vacib məqama diqqət yetirilməsi tələb olunur. Keçid dövrü bitdikdən sonra formalaşmış yeni cəmiyyəti və iqtisadi münasibətlərini necə adlandırmaq olar? Ümumiyyətlə, son 60-70 il ərzində elmi texnoloji irəliləyişlərin təsiri ilə sürətli inkişaf cəmiyyətə, iqtisadi münasibətlərə, bütünlükdə onların xüsusiyyətlərinə ciddi təsir göstərmiş, həmin dəyişikliklər isə öz növbsində müxtəlif sosial iqtisadi nəzəriyyələrin formalaşmasına səbəb olmuşdur [14]: D.Bell- "Postindustrial cəmiyyət"; D.Rismen "Asudə vaxt cəmiyyəti"; Z.Nzejinski "Texnotron cəmiyyəti"; E.Toffler "Üçüncü dalğa cəmiyyəti"; A.Tyren "Cəmiyyətin texnokratik proqramlaşdırılması"; F.Maxlup və T.Ymeao "İnformativ cəmiyyət"; R.Darendorf və P.Druker "Postkapitalist cəmiyyət"; J.Liotar "Postmodern cəmiyyəti"; M.Kastels "İnformasiya cəmiyyəti"; R.İnqlexart "postmaddi dəyərlər cəmiyyəti".

Yuxarıda göstərilən bütün nəzəriyyələr əslində yeni iqtisadiyyatın, yeni, daha mütərəqqi iqtisadi münasibətlər zəminində bərqərar olmuş bir cəmiyyətin xüsusiyyətlərinin təhlili və dəyərləndirilməsi zəminində formalaşmıdşr. Belə bir kontekstdə keçid dövrünü iqtisadi məzmunu hər hansı bir cəmiyyət üçün xarakterik olan ənənəi iqtisadiyyatdan, iqtisadi

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

sistemdən yeni iqtisadiyyata, yeni iqtisadi münasibətlər sisteminə keçid kimi, postkeçid dövrünü isə yeni iqtisadi münasibətlər sisteminin formalaşması kimi xarakterizə etmək olar.

Yeni iqtisadiyyat- müvafiq olaraq "yeni iqtisadiyyat" nədir sualnın bir qədər daha ətraflı cavablandırılması məqsədəuyğun olardı. Qrinspen hesab edir ki, yeni iqtisadiyyat elə bir iqtisadiyyat hesab olunur ki, uzun müddət ərzində infilyasiya və işsizlik səviyyəsinin aşağı olması şəraitində kifayət qədər yüksək templərlə inkişaf etsin. Həmin terminologiya informasiya-kommunikasiya texnologiyalarının, xalq təsərrüfatının yüksək texnologiyalı sahələrinin inkişaf etdiyi bir şəraitdə xüsusi elmi populyarlıq qazandı. Lakin inkişaf etmiş ölkələrin praktikasında sonrakı mərhələlərdə böhranların baş verməsi bu dəyərləndirmələrdə çoxlu boşuqların, natamamlığın mövcudluğunu göstərdi. O.V.Dyaçenko hesab edir ki, yeni iqtisadiyyatla informasiya iqtisadiyyatını eyniləşdirməyə heç bir lüzum yoxdur. İndiki dövrdə informasiya texnologiyalarının təsərrüfat fəaliyyəti kimi prioritet təşkil etdiyi cəmiyyətlərdə həmin texnologiyalar iqtisadi fəaliyyət subyektlərinin hər hansı bir üstünlük əldə etməsinə təminat verməməsi, yüksək texnoilogiyaların sürətlə mənəvi aşınması, iri maliyyə vəsaitlərinin daha səmərəli istifadəsi probleminin meydana çıxması, Transmilli Korporasiyyalarının dövlətlər fövqündə strukturlar kimi transformasiyası belə bir qənaətə gəlməyə əsas verir ki, informasiya cəmiyyətinin öz hüdudları vardır, tez-tez neqativ təzahürləri diqqəti cəlb edir. Bu səbəbdən də həmin konsepsiya iqtisadi tərəqqinin əsas hərəkət vektoru kimi qəbul edilə bilməz [14].

Ümumiyyətlə, analitiklər belə hesab edirlər ki, yeni sivilizasiyanın xüsusiyyətləri kimi texnoloji çevilişlərin baş verməsi, mahiyyəti isə altıncıdan sonrakı texnoloji ukladların yayılması göstərilə bilər. Bu gün üstünlük təşkil edən beşinci texnoloji uklad keçid xarakteri daşımaqla özündə industrial və postindustrial istehsal üsulunun xüsusiyyətlərini birləşdirir. Halbuki, müasir dövr üçün yeni iqtisadiyyat səkkizinci texnoloji ukladın mənimsənilməsidir. İnformasiya texnologiyalarının inkişafı, materialların, biotexnologiyaların, nanatexnologiyaların, resurslara qənaət texnologiyalarının, ekoloji problemlərin həlli və ətraf mühitin qorunmasına xidmət edən innovasiya texnologiyalarının işlənilib hazırlanması, nemət və sərvətlərin əlavə dəyərinin artmasına, biliklərin müxtəlif sahələr üzrə təmərküzləşməsinə, kreativ mərkəzlərin yaranmasına səbəb olur. Yeni iqtisadiyyat – özünün intellektual və yenilənmiş sosial strukturu ilə fərqlənən tamamilə yeni iqtisadi sistem tipidir, burada meritokratiya transformasiya olunur, keçmişdə qalır. Yeni iqtisadiyyatın qurulmasının nəzəri əsaslarını postindustrial cəmiyyətin paradiqmaları təşkil edir. Burada həmçinin təxirəsalınmaz bir sıra problemlərin də həll edilməsi tələb olunur.

- ✓ Cəmiyyətin bütün fəaliyyət sferalarında- sosial, iqtisadi, istehsal, mədəni, humanitar, ekolji sferalarında qeyi müəyyənliyin ləğvi;
- ✓ Az enerji məsrəfli yüksək səmərəlilik göstəriciləri olan texnologiyaların işlənib hazırlanması və tətbiqinin stimullaşdırılması;
- ✓ Bərpa olunmayan təbii resursların səmərəli istifadə edilməsi prosesinin təmin edilməsi;
- ✓ Yeni dövrün tələblərinə cavab verən ixtisaslaşdırılmış kadrların hazırlanması;
- ✓ Cəmiyyətin, dövlətin, təşkilatların "qısa müddətli " iqtisadi maraqlarına xidmət prinsiplərindən imtina. Bir neçə on illiklərə hesablanmış uzunmüddətli, sosial-iqtisadi və texnoloji proqramların hazırlanması istiqamətində müxtəlif ölkələrin fəaliyyətlərinin bir-biri ilə əlaqələndirilməsi;
- ✓ İqtisadi sferada baş verən dəyişikliklərin qeydə alınmasına imkan yaradan əksəriyyət tərəfindən qəbul olunmuş qiymətləndirmə sisteminin, kriteriyaların, iqtisadi göstəricilərin, indikatorların təsbit olunması;
- ✓ Müxtəlif səviyyələrdə biznes proseslərin təmayülləri və iqtisadi proseslərin təzahürləri ilə bağlı adekvat, yeni, təsirli araşdırma üsulları və prinsiplərinin müəyyənləşdirilməsi;



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- ✓ Ölkələr arasında dialoqun qurulması.

Postsovet ölkələrində müasir sənaye siyasətinin (postindustrial) formalaşdırılması üçün insan və sosial potensialının sürətli təmərküzləşməsi tələb olunur, çünki insan və sosial potensial industrial texnoloji ukladın iqtisadi səmərəliliyinin yüksəldilməsinin mühüm komponentidir. Eyni zamanda ölkə sənayesində sürətli struktur dəyişikliklərinin aparılması üçün büdcə vəsaitlərinin təkrar səmərəli bölgüsünün həyata keçirilməsi mexanizmləri vardır. Hər şeydən öncə yeni keyfiyyətli iqtisadi artıma keçid təmin olunmalı, enerji və digər maddi resurslarının əldə edilməsi təkmilləşdirilməli, tranzaksiya məsrəfləri azaldılmalı, istehsalın maddi bazası innovasiyalı inkişaf etdirilməli, ictimai-funksional innovasiyaların rolu sıçrayışla artmalıdır. Yəni bütün bunlar keçid dövrü başa çatdıqdan sonra baş verməlidir. Belə bir şəraitdə qeyd etmək lazımdır ki, müasir postkeçid dövrü üçün iki alternativ diqqəti cəlb edir:

- ✓ Texnoloji geriliyin aradan qaldırılaraq inkişaf etmiş ölkələrin iqtisadiyyatı səviyyəsində intensiv yüksəliş yolunun tapılması;
- ✓ İqtisadi inkişaf səviyyəsi nisbətən geri qalmış periferiya ölkəsi kimi tədricən, müəyyən tarixi perspektivdə texnoloji geriliyin azaldılması yollarının tapılması [22].

Müvafiq olaraq postkeçid dövrü ilə əlaqədar daha ətraflı nəzəri dəyərləndirmələrin aparılması məqsədəuyğun olardı.

**Postkeçid dövrü**

Postkeçid dövrü dedikdə müasir dövrdə iki istiqamətdə proseslər diqqəti cəlb edir. Birincisi postsovet və postsosialist ölkələrinin yaşadığı keçid prosesləri, planlı iqtisadiyyatdan bazar iqtisadiyyatı münasibətlərinin bərqərar olduğu cəmiyyətə keçid proseslərinin nəticələrinin özünü daha qabarıq büruzə verməsi, digər mühüm istiqamət isə yeni keyfiyyət məzmunu qazanmış nəinki iqtisadi, eyni zamanda siyasi münasibətlər sistemini bərqərar olması göstərilə bilər. Lakin hər iki istiqamət üzrə proseslərin bir ümumi cəhəti diqqəti cəlb edir. Postkeçid dövründə iqtisadi inkişaf mərhələsinin başlanması, iqtisadiyyatda dinamik tarazlığın bərqərar olması, ÜDM-in sabit iqtisadi artım tempinin təmin olunması (5-7%) gözlənilir. Belə bir fikir var ki, bu mərhələnin (post-keçid) davamiyyəti 20 ildən yuxarı ola bilər, bu isə öz növbəsində posttranzit ölkələrinin son məqsədlərindən bilavasitə asılıdır [19].



Müasir iqtisadi ədəbiyyatlarda postkeçid dövrü dedikdə daha çox inzibati-amirlik sistemindən bazar iqtisadiyyatı münasibətlərinin bərqərar olduğu bir cəmiyyətə keçid başa düşülür. Halbuki bazar iqtisadiyyatı münasibətlərinin bərqərar olduğu cəmiyyətlərdə üçün də transformasiya proseslərinin baş verməsi xarakterik cəhət kimi qeyd edilə bilər. Nəzərə almaq lazımdır ki, müasir iqtisadi nəzəriyyədə bazar iqtisadiyyatının üç əhəmiyyətli formasına diqqət yönəldilir: LME (liberal market economy)- radikal innovasiyalara istiqamətlənmiş liberal bazar iqtisadiyyatı; CME (coordinated market economy)-mərhələli innovasiyalara əsaslanmış rəqabətə istiqamətlənmiş və istehsal şəbəkələrində inkişaf edən tənzimlənən bazar iqtisadiyyatı; Depended Market Economy –DME-asılı bazar iqtisadiyyatı-daxili investisiyaların aşağı səviyyəsi, xarici kapitaldan, transmilli kapitaldan asılılığı ilə xarakterizə olunurlar [13]. Qeyd etmək lazımdır ki, postsovet ölkələrində əsasən Depended Market Economy modelinə xas olan xüsusiyyətlər daha çox özünü büruzə verir. Bu səbəbdən də həmin ölkələr üçün müasir postkeçid dövrünün ən mühüm problemlərindən biri xam maldan asılı iqtisadiyyatdan innovasiyalara meylli bazar iqtisadiyyatına doğru iqtisadi inkişaf proseslərinin davam etdiyi diqqəti cəlb edir. Heç də təsadüfi deyildir ki, məsələnin kökündə milli iqtisadiyyatların inkişafının strateji vektorlarının praktikada reallaşdırılması formalarının təsbit edilməsi dayanır.

Qərb ölkələri üçün, yəni ənənvi bazar iqtisadiyyatı münasibətlərinin uzun illər ərzində bərqərar olduğu cəmiyyətlərdə isə başlıca məsələlərdən biri bazar mexanizmləri ilə dövlət

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

idarəetməsi arasında optimal tarazlığın əldə edilməsi vəzifəsinin həllinə nail olunmasıdır. Müvafiq olaraq bazar iqtisadiyyatı münasibətləri sisteminin bərqərar olduğu müxtəlif ölkələrin proseslər qovşağnda (müasir postkeçid dövründə) iqtisadi siyasətinin müqayisəli təhlilini nəzərdən keçirilməsi yerinə düşərdi:

- ABŞ-da həyata keçirilən reindustrializasiya (təkrar sənayeləşdirmə) və investisiyaların artması yeni, uzunmüddətli inkişaf strategiyasının reallaşdırılmasından xəbər verir. İnkişafın vüstətlənməsinə təsir göstərən əsas amil yüksək texnoloji ixrac və enerji daşıyıcılarının daxili qiymətlərinin azalmasıdır. Belə bir vəziyyət isə xarici bazarlarda iqtisadi maraqların təmin olunmasına imkan yaradır;
- Avropada daha çox sərt dövlət və bazar tənzimlənməsi arasında tarazlığın əldə edilməsinə çalışılır. Böyük Britaniyada belə bir məqsədə dövlət və korporasiyaların tərəfdaşlığı kontekstində, sənayenin çəkisinin azalması və xidmət sahələrinə istiqamətlənmədə özünü büruzə verir; Fransada- üstünlük sənaye hədəflərinə (sənaye suverenliyin gerçək atributu hesab olunur) və maliyyələşdirmənin idarə edilməsinə əsaslanmış tənzimlənmə strartegiyasına verilir (iri layihələrin kolber siyasəti); Almaniyada sənaye sektoruna dövlətin fəal müdaxiləsi, yeni sahələrin və çətinliklər dövrünü yaşayan sahələrin subsidiyalaşdırılması həyata keçirilir;
- Çində iqtisadi artım siyasəti sənayenin mütləq ölçülərdə yüklənməsinə, texnologiya və istehsalın təşkili formalarının təqlidinə yönəldilmişdir;
- Yaponiyada hökumət sənayenin konkret sahələrini müəyyən vaxta qədər dünya rəqabətindən qorunması və dəstəklənməsi üçün proteksionist siyasət həyata keçirir. Fundamental elmlərin qovşağında qeyri standart istehsal texnologiyalarının inkişafına üstünlük verilir;
- Latın Amerikası ölkələrində iqtisadi sabitlik dövründə sənaye müəssisələri yeni avadanlıq və texnologiyalara fəal investisiya qoyuluşları həyata keçirilir, avadanlıq və texnologiyaların böyük hissəsi şimali amerika müəssisələrində istehsal edilir. Bu ölkələrin hökumətləri strateji texnoloji inkişaf sektorları strategiyalarını seçmişlər (telekommunikasiya, məlumatların elektron təhlili, biotexnologiya və yeni materiallar). Lakin xarici borcların həddindən artıq çox olması öz layihələrinin maliyyələşdirilməsini çətinləşdirir.
- Hindistanda iqtisadiyyatın modernləşdirilməsi istehsalın intellektuallaşdırılması, müasir mütərəqqi texnologiyalara əsaslanmış sənaye müəssisələrinin yaradılmasına üstünlük verilir. Dövlətin özəl sektorda iştirak etməsini təmin edən dövlət siyasəti həyata keçirilir, xarici ticarət və investisiyalarda da ciddi nəzarət edilir [21].
- Azərbaycan Respublikasında müasir dövrdə həyata keçirilən iqtisadi siyasəti xarakterizə edərkən qeyd etmək lazımdır ki, milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri hazırlanaraq reallaşdırılır. Burada məqsəd Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyini, inklüzivliyini və sosial rifahın daha da artırılmasını təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatında mövqeyinin gücləndirilməsi və yüksək gəlirli ölkələr qrupuna daxil olmasıdır. Müvafiq olaraq Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamına müvafiq olaraq milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə ümumilikdə 12 strateji yol xəritəsi hazırlanmışdır [3]. Qeyd etmək lazımdır ki, postkeçid dövrünün problemləri ilə bağlı Azərbaycan iqtisadi ədəbiyyatlarında mütəmadi olaraq nəzəri dəyərləndirmələr aparılır.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**İqtisadi ədəbiyyatlarda postkeçid dövrünün bəzi problemləri**

Azərbaycan Respublikaısnda da postkeçid dövrünün problemləri istər rəsmi, istərsə də akademik müstəvidə bir sıra istiqamətlərdə geniş araşdırma, təhlil və dəyərləndirmələr predmetinə çevrilmişdir. Hər şeydən öncə elmi dəyərləndirmələrdə daha çox diqqəti cəlb edən istiqamətlər qismində, sırf cəmiyyətşünaslıq və iqtisadi münasibətlər sisteminin məzmun və mahiyyəti baxımından keçid və post keçid dövrləri arasında dəqiq zaman hüdudların müəyyənləşdirilməsi, eyni zamanda keçid dövrünü əvəz edən postkeçid dövrünün məzmun və mahiyyəti ilə bağlı səslənən fikirlər xüsusi olaraq qeyd oluna bilər. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2009-cu ildə öz çıxışlarında dəfələrlə Azərbaycanda keçid dövrünün başa çatdığını ealn etdi: Biz müstəqil ölkə kimi gəncik. Müstəqilliyimizi on səkkiz il bundan əvvəl bərpa etmişik. Lakin böyük keçid mərhələsini qət etmişik. Tam mənada planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına, birpartiyalı sistemdən demokratik inkişafa, yoxsulluq və xaos vəziyyətindən iqtisadi və siyasi sabitliyə doğru getmişik, ..“Mən hesab edirəm ki, biz artıq iqtisadi sahədə keçid dövrünü başa vurmuşuq” [1]. Lakin eyni zamanda cənab İlham Əliyevin çıxışlarında islahatların və müvafiq olaraq dünyanın inkişaf etmiş ölkələri üçündə xarakterik olan islahat və inkişaf proseslərinin dərinləşməsi, davam etməsi fikri səslənmişdir. Çıxışlarda psotkeçid dövrü üçün həli vacib məsələlər qismində bir sıra istiqamətlər göstərilmişdir: “bizim üçün postneft dövrü başladı”, “biz hazırda icra etdiyimiz layihələri başa çatdırmalıyıq, ancaq əsas gəlir mənbələri kimi biz texnologiya, innovasiya, sənaye, sahibkarlıq və kənd təsərrüfatı sahələrini nəzərdən keçirməliyik. Biz ciddi islahatlar həyata keçirməyə başladıq və onlar artıq yaxşı nəticə verir” [2]. Daha bir vacib məqamın xüsusi olaraq qeyd edilməsi yerinə düşərdi ki, cənab İlham Əliyev öz çıxışlarında postkeçid dövründə dövlət büdcəsinin sosialyönümlüyü ilə investisiya yönmülyünün uzlaşdırılmasının vacibliyi məsələsini ön plana çıxarır [1]. Ümumiyyətlə, indiki dövrdə Azərbaycan iqtisadi ədəbiyyatlarında postkeçid dövründə bərqərar olmuş iqtisadi sistem sosialyönmlü bazar iqtisadiyyatı kimi xarakterizə olunur və heç də təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Konstitusiyasında ölkənin iqtisadi sistemi bazar iqtisadiyyatı münasibətlərinə əsaslanan sosial-yönümlü iqtisadiyyat kimi xarakterizə edilir (bənd 15.2). Müvafiq olaraq sosialyönümlü bazar iqtisadiyyatı aslayışının məzmunu ilə bağlı zəruri şərhlərin verilməsi yerinə düşərdi.



Bütünlükdə, müasir sosial təmayüllü bazar iqtisadiyyatı konsepsiyasının nəzəri müddəalarının banisi V.Oyken hesab edilir. Həmin ideyalar XX əsrin 30-50-ci illərində alman ordoliberal iqtisadi fikrinin mütəfəkkirləri tərəfindən inkişaf etdirilmişdir [12]. İqtisadi ədəbiyyatlarda geniş istifadə edilən sosialyönümlü bazar iqtisadiyyatı, iqtisadi sistem bazar özünütənzimləmə mexanizmlərinə əsaslanır, dövlət əhalini həddindən artıq yüksək maddi qeyri bərabərsizlikdən və bazarın qyeri yetkinliyinin neqativ təsirlərindən qorunması, həmçinin ictimai rifahın yüksəlməsi üçün fəal sosial siyasət həyata keçirir, gəlirlərin əhali arasında ədalətli bölgüsünü təmin edir [18]. Bu anlayışın ilk versiyasını leksikona alman iqtisadçısı A.Müller-Armak 1946-cı ildə daxil etmişdir. Belə bir fikir var ki, sosial-bazar iqtisadiyyatı konsepsiyası ikinci dünya müharibəsindən sonra Qərbi Almaniya iqtisadi möcüzəsinin əsasını təşkil edir. AFR-in ilk Federal kansleri K.Adenaur sosial-bazar iqtisadiyyatını qarışıq iqtisadiyyat, ictimai rifah və xristian-katolik mərhəməti ilə mülayimləşdirilmiş kapitalizm kimi xarakterizə etmişdir.

Sosialyönümlü termini sosial problemlərin həllinə istiqamətlənmə məzmunu daşıyır, bu terminədn istifadə edərək belə qənaətə gəlmək olar ki, bazar iqtisadiyyatı özü üçün və yaxud hər hansı bir sosial qrup üçün deyil, bütün cəmiyyət üçün, bütün vətəndaşların rifahı üçün fəaliyyət göstərir, onun yatardığı bütün nemətlərdən cəmiyyətin bütün üzvləri istifadə edə

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

bilər. Bütünlükdə, iqtisadi ədəbiyyatlarda sosialyönümlü bazar iqtisadiyyatının aşağıdakı modellərindən bəhs edilir:

- Reyn modeli-Almaniya, Avstriya, İsveçrə, Fransa.
- Anqlosakson-Böyükbritaniya, İrlandiya, Kanada, ABŞ.
- Aralıq dənizi-Yunanistan, İspaniya, İtaliya.
- Skandinaviya-İsveç, Norveç, Finlandiya.
- Asiya-Yaponiya, Koreya, Tayland, Çin [12].

Azərbaycan iqtisadi ədəbiyyatlarında daha çox sosialyönümlü bazar iqtisadiyyatının alman və anqlo-sakson modellərindən bəhs edilir. Anqlo-sakson modelinə ABŞ, Böyük Britaniya, Kanada, Avstraliya, İrlandiya, İspaniya, Avropa Birliyinə yeni üzv qəbul edilmiş Mərkəzi və Şərqi Avropa ölkələrində daha çox üstünlük verilən model kimi qeyd edilə bilər.

**Post keçid dövrü ilə bağlı Azərbaycan iqtisadi ədəbiyyatlarda irəli sürlən fikirlədəki iqtiqamətlər**

N.Müzəffərli öz əsərlərində keçid dövrünün başa çatması, sosialyönümlü cəmiyyətin bərqərar olması, lakin ziddiyyət və problemlərinin mövcudluğu qənaətinə gələrək liberalizmlə dirijizm arasında orta yolun tapılması axtarışları ilə diqqəti cəlb edir [18], N.Müzəffərlinin [8] rəhbərliyi ilə AMEA-nin İqtisadiyyat İnstitunun ekspert qrupuna daxil olan əməkdaşların elmi dəyərləndirmələrindəki fikirləri də xüsusi olaraq qeyd edilməlidir. Burada dünya ölkələrinin iqtisadi modellər üzrə təsnifatı aparılarkən "Xalis bazar iqtisadiyyatı", "Liberal iqtisadiyyatı", "Əsasən liberal iqtisadiyyat", "Aralıq iqtisadiyyat", "Əsasən dirrijist iqtisadiyyat ", "Dirijist iqtisadiyyat", "Xalis inzibati iqtisadiyyatı" modellərindən bəhs edilir. Burada Azərbaycanda aralıq iqtisadi modelin bərqərar olmasından bəhs edərəkən, ölkədə transformasiya proseslərinin davam etməsi fikrinin irəli sürlməsinin müşahidə olunduğunu qeyd etsək səhv etmərik.

F.F. Mustafayev hesab edir ki, keçid dövrünün başa çatsa da transformasiya prosesləri hələ də davam edir, ölkədə sosialyönümlü bazar iqtisadiyyatı təşəkkül tapmışdır[7].

T.Hüseynov 2003-cü ildən Azərbaycanın milli iqtisadi inkişaf modelində yeni inkişaf mərhələsinə daxil olması barəsində fikir irəli sürür. Bütün bunların isə hökumətin iqtisadi siyasətində yeni istiqamətlər və keyfiyyət dəyişiklikləri təsbit edilməsi ilə müşaiyət olunduğu qeyd olunur [5]. Eyni zamanda, dəyərləndirmələrindəki ən önəmli məqam kimi artıq 2003-cü ildən etibarən Azərbaycan iqtisadiyyatında postkeçid elementlərinin sezilməsinin göstərilməsi xüsusi olaraq qeyd edilə bilər.

Ə.Babayev postkeçid dövrünün başlanmasını təkcə planlı iqtisadiyyatdan bazar iqtisadiyyata keçid proseslərinin başa çatması ilə əlaqələndirmir, O, burada ən önəmli məqam kimi dünya iqtisadiyyatına inteqrasiya olunmuş, davamlı inkişaf prosesləri yaşayan sosialyönümlü bazar iqtisadiyyatı sisteminin spesifik Azərbaycan modelindən bəhs edir [4].

R.Quliyev öz əsərlərində xüsusi olaraq qeyd edir ki, əsas məqsəd müasirləşdirmə və elmin, texnikanın, texnologiyanın cəmiyyətin bütün sahələrinə tətbiq edilməsi, həmçinin dünyada müsbət inkişaf modellərindən (Cənubi Koreya, Malayziya, Norveç, İndoneziya) müəyyən müsbət təcrübənin əxz olunduğu spesifik sosialyönümlü bazar iqtisadiyyatı modelinin bərqərar olmasıdır ki, Azərbaycanda bu məqsədlərə qismən nail olunmuşdur (yəni spesifik sosialyönümlü bazar iqtisadiyyatı modeli).

F.F.Əmirbəyovun [9] Azərbaycan iqtisadiyyatının tipinin müəyyənləşdirilməsi ilə bağlı dəyərləndirmələri xüsusi maraq doğurur. O, araşdırmnaların Lifşitsin metodikasına əsasən aparmışdır. Bu metodikada konkret ölkələrin iqtisadiyyatı stasionar və qeyri stasionar iqtisadiyyatlara bölünür. F.F.Əmirbəyov yazır ki, *stasionar iqtisadiyyat* dedikdə elə bir təsərrüfat sistemi başa düşülür ki, bu sistem üçün ölkə sənayesi əlverişli inkişaf edir, makroiqtisadi göstəriciləri tədricən dəyişilir, ölçü parametlərinin qısa və bəzən də orta



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

müddətli perspektivlərdə dinamikasını öncədən təsbit olunması mümkndür. Qeyri stasionar iqtisadiyyatda makroiqtisadi dəyişikliklər kəskin surətdə dəyişilir, öncədən yaxşı təsbit olunması qeyri mümkündür, özündə əsasən böhran və post böhran dövrü xüsusiyyətlərini daşıyır. F.Əmirbəyov elmi araşdırmalarının nəticəsi kimi Azərbaycan iqtisadiyyatını ikinci tip, qeyri stasionar iqtisadiyyat kimi xarakterizə etmişdir. O, hesab edir ki, qlobal rəqabət şəraitində ən başlıca vəzifələrdən biri təkcə iqtisadi agentlərin, lobbistlərin deyil, eyni zamanda müasir sənayenin inkişaf etdirilməsi vacib məsələdir.

S.Ç.Hacıyeva öz əsərlərində Azərbaycan Respublikasının post-industrializm mərhələsinə daxil olmasının vacibliyi fikrini əsaslnadıraraq yazır ki, dünya ölkələrinin əksəriyyəti texnogen inkişaf modelinin təsiri altındadır. Texnologiya dünyanın yeni quruluş nizmanı müəyyənləşdirir. Ayrı-ayrı iqtisadi subyektlərin vəziyyəti, həmçinin ölkənin qlobal, regional, transregional aspektdə rəqabətqabiliyyəti texnogiyalardan asılıdır [10].

Əliyev Ə.Q. inkişaf etmiş ölkələrin XXI əsrdəki iqtisadiyyatı - informasiya və biliklərə əsaslanan iqtisadiyyatdır. İnformasiya cəmiyyətində informasiya və bilik əmtəəyə çevrilir. Burada şəbəkə iqtisadiyyatı, internet iqtisadiyyatı, media iqtisadiyyatı, kontent iqtisadiyyatı, proqram məhsulları iqtisadiyyatı, e-xidmətlər iqtisadiyyatı, e-kommersiya və s. informasiya iqtisadiyyatının sektorlarıdır. İnformasiya iqtisadiyyatı ilə bilik iqtisadiyyatını fərqləndirən əsas cəhət informasiyanın xammal xarakterli olmasıdır. İnformasiya cəmiyyətində informasiya, bilik, kommunikasiya, bacarıq, səriştə yüksək qiymətləndirilir. İC-nin əsas potensialı insan və onun intellektidir. İnsanların yeni bilik yaratmaq qabiliyyəti xüsusi dəyər daşıyır [6].



Rasim Həsənov hesab edir ki, son 12- 15 ilin təcrübəsi göstərir ki, ölkədə iqtisadi münasibətlərin sistemli transformasiyasında böyük imkan və uğurlara baxmayaraq transformasiya prosesinin davam etməsi ilə bağlı bir sıra məsələlər hələ də qalmaqdadır. O, problemləri iki qrupa bölür:

- ⇨ Konsepsiya və məqsədli ideya təsbitləri, prioritetlərin seçilməsi, konkret islahat proqramlarının reallaşdırılması, iqtisadi siyasətlə bağlı problemlər;
- ⇨ İslahat tədirlərinin geniş əhali kütləsi tərəfindən qavranılması problemi.

O, problemlərin belə bir qruplaşdırılması kontekstində dövlətin iqtisadi siyasətinin rolu və vəzifələri; ölkə iqtisadiyyatın idarə olunmasının çətinlik və mürəkkəbliyi məsələlərinə diqqəti yönəldərək belə bir qənaətə gəlir ki, bütün bunlar Azərbaycan iqtisadiyyatında optimal model axtarışı permanent dəyişikliklərə müşaiyət olunması ilə bağlıdır; digər tərəfdən sistemdə mütərəqqi, bazar elementləri ilə yanaşı, köhnə institusional strukturunda elementləri mövcuddur və fəaliyyət göstərir [11, s.92-100, №1, 2009].

Bütünlükdə, müasir Azərbaycan iqtisadi fikrində postkeçid dövründə bərqərar olan cəmiyyət və istisadi münsibətlər sistemi “sosialyönümlü bazar iqtisadiyyatı ” kimi xarakterizə edilir. Lakin, eyni zamanda “informasiya cəmiyyəti”, “biliklər iqtisadiyyatı”, “texnogen inkişaf modeli”, “postindustrial iqtisadiyyat” , stasionar iqtisadiyyata keçidin vacibliyi məsələsi ilə də bağlı fikirlər diqqəti cəlb edir. Göründüyü kimi, əsas polemik dəyərləndirmələr keçid və postkeçid dövrləri arasında hüdudlar məsələsi ilə bağlıdır. Belə bir kontekstdə müasir rus iqtisadi fikrində dəyərləndirmələrin istiqamətləri ilə Azərbaycan iqtisadi fikri arasında müqayisələrin aparılması məqsədə uyğun olardı.

**Nəticə**

Azərbaycan iqtisadi ədəbiyyatlarında post keçid dövründə təşəkkül tapmış cəmiyyət sosialyönümlü bazar iqtisadiyyatı kimi xarakterizə edilərək, əsas məqsədin informasiya cəmiyyətinin, biliklər iqtisadiyyatının formalaşdığı bir cəmiyyətə transformasiyası hesab edirlir. İqtisadi fikirlərdəki əsas polemik dəyərləndirmələr keçid və postkeçid dövrləri arasında hüdudlar məsələsi ilə bağlıdır. Burada iki istiqamət xüsusi olaraq diqqəti cəlb edir:

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

*Birinci istiqamət*- keçid dövrü bitmişdir-davamlı inkişaf prosesləri yaşayan sosialyönümlü bazar iqtisadiyyatı sisteminin spesifik Azərbaycan modeli bərqərar olmuşdur;
*İkinci istiqamət*- keçid dövrü bitmiş, sosialyönümlü bazar iqtisadiyyatı münasibətləri sistemi bərqərar olmuş, lakin transformasiya prosesləri davam edir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri və bəyanatları// http://files.preslib.az/site/ialiyev/2009.pdf, Bakı S.206-207, s.212
2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri və bəyanatları // http://files.preslib.az/site/ialiyev/2018.pdf, s.19
3. Azərbaycan Respublikasının milli iqtisadiyyat üzrə perspektivi üzrə Strateji Yol Xəritəsihttps:// static. president. az/pdf/38542.pdf
4. Babayev Ə.P. Azərbaycanın müasir iqtisadi inkişaf strategiyasına fundamental elmi baxış// Azərbaycan.- 2011. 16 aprel.- S. 6.// http://anl.az/down/meqale/azerbaycan/2011/aprel/168866.htm
5. Hüseynov T., “Azərbaycan 2020: Gələcəyə baxış” inkişaf Konsepsiyası və qarşıda duran vəzifələr//AMEA İqtisadiyyat İnstitutu Elmi Əsərlər”, 2015 №1, s.3( s.3-8).
6. Əliyev Ə.Q., İnformasiya iqtisadiyyatının sektorlarının formalaşmasının elmi-nəzəri və metodoloji əsaslarının tədqiqi//İnformasiya cəmiyyəti problemləri, 2018, №2, s.84-96//WWW.jpis.az
7. F.F.Mustafayev, Transformasiya şəraitində makroiqtisadi proseslərin dövlət tənzimlənməsi problemləri// iqtisad elmləri doktoru elmni dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın Avtoreferatı, Bakı 2010, (50 s.), S.11-13
8. N.Müzəffərli, B.Əhmnədov , İS (S) İ-2017 Dünya ölkələrinin iqtisadi modellər üzrə təsnifatı , Bakı 2019, s.60-61// http://economics.com.az/index.php/tedbirler/yenilikl-r/item/1683-is-s-i-2017-dunya-oelkaelaerinin-izhtisadi-modellaer-uzrae-taesnifat-kitab-dzhapdan-dzh-kh-b.html
9. Амирбеков Ф. Ф. Определение типа экономики Азербайджана // ЭНСР. 2015. №2 (69). URL: https://cyberleninka.ru/article/n/opredelenie-tipa-ekonomiki-azerbaydzhana, c.135,
10. Гаджиева Ч.Ш., Сценарии геоэкономического развития Азербайджанской республики// Mechanisms of Public Managnebt, Public Administration Aspects // 2014 №9-10 (11-12)С.43 (42-48)
11. Гасанов Р., Управленческие особенности транзитивных экономик ( на примере азербайджанской республики) // Кавказ и глобализация. 2009. №1. URL: https://cyberleninka.ru/article/n/upravlencheskie-osobennosti-tranzitivnyh-ekonomik-na-primere-azerbaydzhanskoy-respubliki
12. Грошева Т. А. Россия на пути к социально ориентированной рыночной экономике // Известия ТПУ. 2005. №5. URL: https://cyberleninka.ru/article/n/rossiya-na-puti-k-sotsialno-orientirovannoy-rynochnoy-ekonomike , c.189 (c.189-191)
13. Драхокупил Я. Постпереходные варианты политического и экономического развития стран Восточной Европы и бывшего Советского Союза // Мир России. 2009. № 3. С. 39–60.
14. Дьяченко Олег Вячеславович Методологические особенности новой экономики // Вестник ЧелГУ. 2011. №32. URL:
https://cyberleninka.ru/article/n/metodologicheskie-osobennosti-novoy-ekonomiki (c.9-14)
15. Зубкевич Л. А. Основные подходы в определении начала и конца переходного периода в обществе // Вестник Нижегородского университета им. Н.И.Лобачевского. Серия: Социальные науки. 2004. №1. URL: https://cyberleninka.ru/article/n/osnovnye-podhody-v-opredelenii-nachala-i-kontsa-perehodnogo-perioda-v-obschestve).
16. Кузнецов Ю.А., Силинский Ю.Р., Хомутова А.В. Российское и зарубежное законодательство о
мерах противодействия коррупции. М.: Новая книга, 2001. 259 с
17. Максименко М. В. Понятие и характеристика переходного периода в обществе: философское осмысление // Вестник Адыгейского государственного университета. Серия 1: Регионоведение: философия, история, социология, юриспруденция, политология,



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

культурология. 2010. №1. URL: https://cyberleninka.ru/article/n/ponyatie-i-harakteristika-perehodnogo-perioda-v-obschestve-filosofskoe-osmyslenie

18. Музаффарли Н. , Социальная ориентированность экономики в правистских и левистких системах, Баку, «Шарг-Гарб», 2014, (280 стр.), с.13 //http:// economics. com.az/ ru/images/fotos/ akif_m/N.Muzaffarli_ Levizna_(Pravizna)_Ekonomiki.pdf
19. Плюсов М.Н. Экономическое развитие стран с постпереходной экономикой на современном этапе // Экономический анализ: теория и практика. 2010. №14. URL: https://cyberleninka.ru/article/n/ekonomicheskoe-razvitie-stran-s-postperehodnoy-ekonomikoy-na-sovremennom-etape
20. Трушков В.В. Общество и отечественная политическая культура XX века. М.: Былина, 2001. 303 с.
21. Цветков Валерий Анатольевич, Степнов Игорь Михайлович, Ковальчук Юлия Александровна Реализация стратегий новой индустриализации экономики // Финансы: Теория и Практика. 2016. №6. URL: https://cyberleninka.ru/article/n/realizatsiya-strategiy-novoy-industrializatsii-ekonomiki
22. Чарина, А. М. Управление инновациями в переходной экономике = Innovative management in transition economy / А. М. Чарина, В. С. Соков // Экономическая наука сегодня: сборник научных статей / Белорусский ... С. Ю. Солодовников (пред. редкол.). – Минск: БНТУ, 2018. – Вып. 7. – С. 165-171.

***Сейфаддин Сабир оглу Самендаров***
***Айгюн Хейрулла гызы Фаталиева***
***Занфира Газанфар гызы Гулиева***



***Резюме***

***Экономические особенности и оценки постпереходного периода***

*В статье рассматриваются научные взгляды в Азербайджанской экономической литературе относительно на экономические особенности постпереходного периода. В результате исследований были определены основные направления в идей постпереходного периода в современной экономической литературе. В то же время были проведены сравнения между переходным и постпереходным периодами, был уточнен содержания понятия новой экономики, также проведен сравнительный анализ экономической политики разных стран (в современный постмодернистский период), в которых была создана система рыночных отношений.*

***Ключевые слова:*** *переходный период, постпереходный, социально ориентированный, рыночная экономика, экономическая модель*

***Seyfaddin Sabir Samandarov***
***Aygun Xeyrulla Fatalieva***
***Zanfira Gazanfar Guliyeva***

***Summary***

***Economic Peculiarities and Assessments of the Post Transitional Period***

*The article discusses scientific views in the Azerbaijani economic literature about economic features of the post-transition period. As a result of the study, were identified, the main directions of ideas about the post transition period in modern economic literature. At the same time, comparisons were made between the transitional and post-transitional periods, to clarify the content of the concept of a new economy. Besides were a comparative analysis of the economic policies of different countries (in the modern post-modern period), where a system of market relations dominated.*

***Key words:*** *transition period, post transition, socially oriented, market economy, economic model*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 07.01.2020.***
***Çapa qəbul olunub: 10.01.2020.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*